Xalq qəzeti 2020.- 4 sentyabr.- S.5.

# İndiki şəraitdə sahibkarlara dəstək daha şəffaf və mütəşəkkil qaydada göstərilir

**Son 17 ildə ölkəmizdə əhalinin keyfiyyətli və təhlükəsiz qida məhsulları ilə təminatına xüsusi önəm verilib. Respublikamızın regionlarında ən müasir texnologiyaların tətbiqinə əsaslanan iri çörək zavodları yaradılıb, mövcud çörəkbişirmə müəssisələri yenidən qurularaq ən müasir texnologiya və avadanlıqlarla təchiz edilib. Görülən tədbirlər istehlakçıları yüksək keyfiyyətli, müxtəlif çeşiddə çörək və çörək məhsulları ilə təmin etməyə imkan verib.**




Qarabağ regionunda ən böyük çörək istehsal edən müəssisəmiz isə 1980-ci illərin əvvəllərində xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilərək istifadəyə verilib. "2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na uyğun olaraq "Bərdə-Çörək" ASC yenidən qurularaq, müasir avadanlıqlarla təchiz edilib. Sutkalıq istehsal gücü 55 ton olan zavodda gündəlik 10-12 ton çörək istehsalına şərait yaradılıb. Ötən dövr ərzində müəssisə Bərdə və ətraf rayonların əhalisinin yüksək keyfiyyətli çörəklə təmin edilməsində mühüm rol oynayıb.

Ulu öndər Heydər Əliyev aqrar sahəyə xüsusi diqqət göstərməklə yanaşı, həm də bu sektorda güclü iş adamlarının – fermerlərin, ailə təsərrüfatlarının, sahibkarların formalaşmasına xüsusi səy göstərirdi. Ümummilli liderin 2002-ci ilin aprelində yerli sahibkarlarla keçirdiyi görüşü bu gün də böyük razılıq hissi ilə xatırlayıram. Həmin görüşdə iştirak edən şəxs kimi ulu öndərin aqrar sektorda güclü sahibkarlar ordusunun formalaşmasında nə qədər maraqlı olduğunu gördüm. Dahi şəxsiyyətin həmin görüşdəki proqram xarakterli nitqi və sahibkarlara dərin tövsiyəsi illər keçsə də, öz dəyərini və aktuallığını qoruyub saxlayır.

Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Prezidentimiz cənab İlham Əliyev də sahibkarlığın inkişafını daim diqqətdə saxlayır, iş adamlarına tövsiyə və tapşırıqlar verir. Dövlət başçısının tapşırığına əsasən, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışının əlavə dəyər vergisindən azad olunması bu sahədə qiymətin sabit qalmasına səbəb olub. Çörəyin maya dəyərinin aşağı düşməsi həm sahibkarlara stimul yaradır, həm də əhalinin sosial rifahının yaxşılaşmasına öz töhfəsini verir.

Prezident İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı bu il avqustun 6-da keçirdiyi müşavirədə pandemiya şəraitində sosial-iqtisadi məsələlərin həllinin diqqət mərkəzində saxlanılması, özəl bölmənin problemlərinə həssaslıqla yanaşılması, yüzlərlə sahibkara yeni proqramlar əsasında güzəştli kreditlər təqdim edilməsi barədə ətraflı danışıb. Bildirib ki, bu dövrdə dövlətin investisiyaları, o cümlədən, sosial infrastruktura qoyulan sərmayələrin həcmi qorunaraq, icra olunub. Həmçinin fərdi (mikro) sahibkarlara yeni proqram çərçivəsində banklar tərəfindən 12,5 milyon manatdan çox kreditlər ayrılıb. Mövcud kreditlərin faizlərinin ödənişi dəstək proqramı əsasında reallaşdırılıb. Vergi güzəştlərinə aid olan bütün məsələlər qanunvericilikdə öz əksini tapıb, o cümlədən, ipoteka proqramının genişlənməsinə dair tədbirlər həyata keçirilib.

Azərbaycan Prezidentinin tapşırığına və Nazirlər Kabinetinin sahibkarlıq subyektlərinə yeni maliyyə dəstəyinin göstərilməsi barədə müvafiq qərarına əsasən, hazırda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən fərdi (mikro) sahibkarlara vəsaitlərin köçürülməsi ilə bağlı prosesə start verilib.

Maliyyə dəstəyinin ikinci mərhələsi çərçivəsində belə dəstəyə daha çox ehtiyacı olan və birinci mərhələdə 250 manat həcmində birdəfəlik ödəniş almış fərdi (mikro) sahibkarlara təkrarən vəsait ödənilir.

Avqustun 11-dən başlayaraq, ikinci mərhələ çərçivəsində 49 min 421 fərdi (mikro) sahibkarın bank hesablarına maliyyə dəstəyi köçürülməsinə başlanılıb. Birinci mərhələdən fərqli olaraq, bu dəfə vergi ödəyicilərinin yenidən müraciət etməsinə ehtiyac yoxdur. Maliyyə dəstəyi üzrə ödənişlər əvvəllər bu dəstəyi almış vergi ödəyiciləri üzrə həyata keçirilir.

Qeyd edim ki, fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramının birinci mərhələsi çərçivəsində indiyədək daxil olmuş və təsdiqlənmiş 111 min 209 müraciət üzrə maliyyə dəstəyinin bank hesablarına köçürülməsi üçün təqdim edilib. Təsdiq olunan müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 63,66 milyon manat təşkil edib. Artıq birinci mərhələ çərçivəsində 63,55 milyon manat vəsaitin 106 min 907 nəfər fərdi (mikro) sahibkarın bank hesablarına köçürülməsi reallaşdırılıb.

Dövlətimizin başçısı pandemiya dövründə sahibkarlara öz fəaliyyətlərinə məsuliyyət hissi ilə yanaşmalarının zəruriliyini də dönə-dönə xatırladıb. Bildirib ki, COVİD-19-la mübarizə şəraitində sahibkar, ilk növbədə, şəffaf işləməlidir. Çünki şəffaflıq sahibkarın və vətəndaşın gələcəkdə baş verə bilən bütün gözlənilməz təsirlərə hazırlıqlı olmasını təmin edir. Bu üstünlüyü görməyi bacaranlar dövlət başçısı ilə həmrəylik nümayiş etdirirlər. Koronavirus təcrübəsi belə bir həmrəyliyin olduqca vacib olduğunu bir daha təsdiqlədi.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, "burada təkcə dövlət orqanlarının fəaliyyəti kifayət deyil. Biznes dairələri də öz məsuliyyətini dərk etməli və əyri yola getməməli, öz fəaliyyətini "kölgədən" çıxarmalıdırlar...". Əks halda, əmək müqaviləsinin və şəffaf fəaliyyətin olmaması koronavirus dövründə olduğu kimi, vətəndaş üçün yeni həyat dərsinə çevriləcək. Bunu nəzərə alaraq, iqtisadi fəaliyyətdə məsuliyyət və nizam-intizama üstünlük verilməli, bu birlik post-pandemiya dövründə də davam etdirilməlidir.

Rəhbərlik etdiyim müəssisə taxılçılıqla bağlı olduğundan aqrar sektorda bu sahənin mövcud vəziyyətinə də toxunmaq istərdim. Belə ki, son illərdə kənd təsərrüfatının, eləcə də onun ən mühüm sahəsi olan taxılçılığın inkişafına xüsusi diqqət və qayğı göstərilib. Dövlət tərəfindən verilən subsidiyaların şəffaflaşdırılması istiqamətində önəmli addımlar atılıb, islahatlar aparılıb. Həm fermerlər üçün daha uyğun, çox şəffaf sistem yaradılıb, həm də dövlət orqanları üçün nəzarət mexanizmi təkmilləşdirilib. Əvvəllər mövcud olan texnika ilə bağlı təminat problemi həll edilib.

Texnikadan söz düşmüşkən, qeyd edim ki, cari ilin birinci yarısında "Aqrolizinq" ASC-nin xətti ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına 17,9 milyon manat dəyərində 54 taxılyığan kombayn və 63 müxtəlif növ traktor satılıb və verilib.

Yeri gəlmişkən, Azərbaycanda bu ildən tətbiq ediləcək aqrar sığorta mexanizmi ilkin mərhələdə 14 növ bitkiçilik məhsulunu sığortalayacaq. Həmin məhsullar sırasına buğda və arpa bitkilərinin dən hissəsi ilə yanaşı, gövdə hissəsi daxil edilib.

Beləliklə, kənd təsərrüfatında reallaşdırılan islahatlar artıq öz səmərəsini verir. Bu, taxılçılıqda da aydın nəzərə çarpır.

Prezident İlham Əliyev avqustun 24-də Faiq Qürbətovu Biləsuvar Rayon İcra Hakimiyyətinin, Elmir Bağırovu isə Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edərkən deyib ki, ölkə üzrə taxılçılıqda orta məhsuldarlıq bu il 30 sentnerin üstündədir. Halbuki müasir texnologiyaların tətbiq olunduğu və suvarma problemlərinin öz həllini tapdığı bəzi təsərrüfatlarda bu rəqəm hər hektardan 70 sentnerə çatıb. Bu da Avropanın ən qabaqcıl ölkələrinin səviyyəsində olan nəticədir. Yəni, bu, onu göstərir ki, daha yüksək nəticə əldə etmək mümkündür. Sadəcə olaraq düzgün yanaşmaya, bütün aqrotexniki qaydalara əməl olunmalıdır, suvarma məsələləri öz həllini tapmalıdır.

Burada xatırlatmaq yerinə düşər ki, rayonumuzda uzun illər ərzində taxılçılıqla məşğul olan fermer İkram Ziyadov düzgün aqrotexniki qulluq nəticəsində taxıl sahəsindən buğda üzrə orta hesabla 54 sentner, arpa üzrə 45 sentner məhsul əldə edərək, Kənd Təsərrüfatı Nazirliyinin təsis etdiyi "Ayın fermeri" adına layiq görülüb.

Prezident İlham Əliyev daim çıxışlarında yerli icra orqanlarına iqtisadiyyatın inkişafında mühüm rol oynayan formalaşmış sahibkarlar sinfinə qayğı göstərmələrini tapşırıb. Dövlətimizin başçısı bununla bərabər, sahibkarların da öz növbəsində, dövlətin vergisini qəpiyinə qədər ödəməyə borclu olmalarının, "kölgə" iqtisadiyyatına yol verməmələrinin, ağır vəziyyətdə yaşayan insanlara yeni icra hakimiyyəti başçıları ilə bərabər kömək göstərmələrinin zəruriliyini xatırladıb.

Bir iş adamı olaraq, dövlətimizin başçısının bu sözlərini fəaliyyətimdə rəhbər tutur, ölkə rəhbərinin tövsiyələrinə daim əməl edirəm.

Yeri gəlmişkən, "Bərdə-Çörək" ASC tərəfindən pandemiya dövründə aztəminatlı ailələrə 150 bağlama yardım edilib, Koronavirusla Mübarizəyə Dəstək Fonduna isə 5 min manat vəsait ödənilib.

Sonda sahibkarlara, iş adamlarına göstərdiyi yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığımı bildirir, ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində bundan sonra da əzmlə çalışacağımı vurğulayıram.

***Məhərrəm ŞƏFİYEV,***
***"Bərdə-Çörək" ASC-nin idarə heyətinin sədri, iqtisadiyyat üzrə fəlsəfə doktoru***